

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 25 (20.679)

*8 fevral 2013-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## YAP Culfa rayon təşkilatının yaradılmasının 20-ci ildönümü qeyd olunub

*Yeni Azərbaycan Partiyası Culfa rayon təşkilatında bu təşkilatın yaradılmasının 20-ci ildönümü ilə bağlı tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov açaraq məruzə edib. Məruzəçi bildirib ki, ölkəmizdə ən güclü və nüfuzlu siyasi qüvvəyə çevrilən Yeni Azərbaycan Partiyasının Azərbaycan dövlətçiliyinin qorunmasında, ictimai-siyasi sabitliyin bərqərar olunmasında, ölkəmizin inkişafında və beynəlxalq aləmdə nüfuzunun artmasında tarixi xidmətləri var. Partiyanın yaranması o vaxt ölkəmizdə hakimiyyətdə olan qüvvələrin siyasi səriştəsizliyi nəticəsində respublikamızı bürüyən özbaşınalığın, xaosun aradan qaldırılması, Azərbaycanın parçalanmasının qarşısının alınması, dövlətçiliyimizin qorunması zərurətindən irəli gəlib.

Qeyd olunub ki, 1992-1993-cü illərdə partiyanın yerlərdə rayon təşkilatlarının yaradılması prosesi gedirdi. 7 fevral 1993-cü ildə Yeni Azərbaycan Partiyası Culfa rayon təşkilatının I təsis konfransı dahi rəhbərimiz Heydər Əliyevin iştirakı ilə keçirilib. Konfransda 25 ərazi ilk təşkilatından 450 nəfər nümayəndə iştirak edib. Konfransda ulu öndərimiz Heydər Əliyev çıxışında mövcud siyasi şəraitdən, yeni yaradılan rayon təşkilatı qarşısında duran vəzifələrdən danışaraq demişdir: ***"Azərbaycan öz müstəqilliyini möhkəmləndirməklə yanaşı, müharibədən də çıxmalı, necə olursa-olsun, torpaqlarımızı geri qaytarmalıdır. Yeni Azərbaycan Partiyasının əsas məqsədlərindən biri də ondan ibarətdir ki, müstəqillik əldə etmiş Azərbaycan dövlətinə bu sahədə öz köməkliyini göstərsin".***

Rayon təşkilatı yarandığı gündən ötən 20 il ərzində ulu öndərimizin təsis konfransındakı proqram xarakterli çıxışından irəli gələn vəzifələri, partiyanın Nizamnamə və Proqramını layiqincə yerinə yetirməyə çalışıb. Ötən illər ərzində rayon təşkilatı 8 konfrans keçirib. 20 il ərzində rayon üzrə partiya üzvlərinin sayı 450 nəfərdən 5250 nəfərə çatıb. Ərazi ilk təşkilatlarının sayı isə 25-dən 90-na yüksəlib. Rayon təşkilatı, onun bütün üzvləri rayonun ictimai-siyasi, sosial-iqtisadi həyatında yaxından iştirak edirlər. Partiya üzvlərindən 2383 nəfəri qadınlar, 1931 nəfəri isə gənclərdir.

Partiyanın uğurlarından danışan Qadir İbrahimov bildirib ki, Naxçıvanın Şərqə açılan qapısı olan Culfa rayonunda da quruculuq tədbirləri geniş vüsət alıb. Son illər rayon mərkəzi və kəndlərində onlarla yeni sosial obyektlər, xidmət sahələri, məktəblər, xəstəxanalar, körpülər istifadəyə verilib, yeni parklar və yollar salınıb, şəhər və kənd yaşayış məntəqələri qazlaşdırılıb. Rayonun 8 kəndi müasir, abad kəndlər sırasına daxil olub. Yaycı, Ərəzin, Xanəgah, Milax, Ərəfsə, Ləkətağ, Nəhəcir kəndlərində yeni tikilib istifadəyə verilən kənd mərkəzlərində Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatları üçün hərtərəfli şərait yaradılıb. Culfa şəhərinin Heydər Əliyev prospektində Yeni Azərbaycan Partiyası Culfa rayon təşkilatı üçün hərtərəfli iş şəraiti olan, hər cür avadanlıqlarla təmin edilən müasir ikimərtəbəli inzibati bina tikilib istifadəyə verilib.

Sonra məruzə ətrafında çıxışlar olub. Çıxış edənlər 1992-ci ilin noyabr ayında Naxçıvanda çətin şəraitdə yaradılan Yeni Azərbaycan Partiyasının çox qısa müddətdə ümumxalq partiyasına çevrildiyini diqqətə çatdırıblar. Qeyd olunub ki, partiya o zamankı hakimiyyətə müxalif siyasi qüvvə kimi yaransa da, sonradan xalqın dəstəyi ilə iqtidara gəlib, sıraları genişlənib. Partiyanın siyasi kursunun mayasında xalqa, dövlətə xidmətin dayanması, müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində atılan uğurlu addımlar xalqın bu siyasi qüvvəyə olan inam və etimadını artırıb. Bunun nəticəsidir ki, partiyanın, eləcə də Culfa rayon təşkilatının sıraları ilbəil genişlənir, gənc nəsildə partiyaya üzv olmaq istəyi artır.

## Ordubadda vergi ödəyiciləri ilə görüş

Ordubad rayonunda vergi ödəyiciləri ilə görüş keçirilib. Görüşdə POS-terminalların əhəmiyyəti haqqında söhbət açan rayon Vergilər Şöbəsinin müdiri Məhəmməd İbadov bildirib ki, POS-terminal kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin ödənilməsi üçün nəzərdə tutulmuş avadanlıqdır. Əməkhaqqı, pensiya, müavinət və digər kartlarla pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində POS-terminal vasitəsilə malların, iş və xidmətlərin dəyəri ödənilərkən kart sahibindən əlavə xidmət haqqı tutulmur. POS-terminal üzrə əməliyyatlar həyata keçirilərkən, adətən, iki nüsxədə qəbz çap olunur. İmzalanmış qəbzin bir nüsxəsi kart sahibində, digəri isə təsərrüfat subyektində qalır. Bu qəbz malın mağazaya geri qaytarılması zamanı zəruridir. Bundan başqa, sahibkar artıq məsrəflərdən (nağd pulların saxlanılması, hesablanması) və risklərdən (saxta pul, pulların oğurlanması) tamamilə azad olur.

Çıxışlardan sonra sahibkarları maraqlandıran suallar cavablandırılıb.

## Tarix muzeyinin binası yenidən qurulur

Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi binada əsaslı yenidənqurma işləri həyata keçirilir. Köhnə çardaq sökülərək yenidən qurulub. Hazırda binanın fasadında təmir işləri aparılır. Birmərtəbəli muzey binasının daxilində əsaslı şəkildə təmir və yenidənqurma işləri aparılacaq, qapı və pəncərələr dəyişdiriləcək, əlavə otaqlar və müasir iş şəraiti yaradılacaq.

"Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları muzey binasında bir neçə ay əvvəl başladıqları yenidənqurma işlərini keyfiyyətlə və sürətlə davam etdirirlər.

## Əmanətçilərə 13 milyon 714 min 710 manat vəsait ödənilib

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, əmanətlərin qaytarılmasına başlandığı gündən fevralın 7-nə qədər muxtar respublikada 35 min 559 nəfər əmanətçiyə birdəfəlik ödəmələrin verilməsi təmin edilib. Məlumatda o da bildirilir ki, əmanətçilərə 13 milyon 714 min 710 manat vəsait ödənilib. Əmanətlərin qaytarılması üzrə ərizələrin qəbulu ötən ilin sonunadək həyata keçirilib. Vəsaitlərin ödənilməsi bu ilin sonuna qədər davam etdiriləcək.

Xatırladaq ki, ölkə Prezidentinin 14 mart 2012-ci il tarixli Fərmanına əsasən, SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi qərara alınıb. 2012-ci ilin iyunun 1-dən isə sovet dövründən banklarda qalmış əmanətlərin qaytarılmasına başlanılıb

## Naxçıvan Regional İnformasiya Mərkəzində yeni kurs təşkil edilib

Muxtar respublikamızda məhdud fiziki imkanlı insanların tibbi və sosial reabilitasiyalarının kompleks həlli, onların cəmiyyətə inteqrasiya olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır, bu qəbildən olan insanlara göstərilən xidmətlər getdikcə genişləndirilir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə və danışma məhdudiyyəti olanların təhsil almalarının yeganə vasitəsi olan daktilo əlifbası – əl əlifbası üzrə təşkil etdiyi kurs bu tədbirlərin davamıdır.

Kursa mərkəzin mütəxəssisləri, həmçinin eşitmə və danışma məhdudiyyəti olan uşaqlar cəlb edilib. Kursun təşkilində məqsəd mütəxəssislərə və qeyd edilən kateqoriyadan olan uşaqlara Azərbaycan daktilo əlifbasının öyrədilməsidir. Kurs iştirakçılarına hərf, heca, söz və cümlənin əl barmaqlarının hərəkəti ilə oxunması və eyni zamanda mimika işarələri ilə göstərilməsi tədris olunur. Uşaqlar əl əlifbasını mənimsədikdən sonra normal oxuyub-yazacaq, əl barmaqlarının hərəkəti və mimika işarələri vasitəsilə bir-birlərilə ünsiyyət quracaqlar.

Fevral ayının 4-dən başlayan və bir ay davam edəcək kursu Bakı şəhərinin Nizami rayonundakı Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün 3 nömrəli Respublika Xüsusi İnternat Məktəbinin müəllimi Zərqələm İsmayılova aparır.

**Xəbərlər şöbəsi**

## Pensiya siyasəti, sosial sığorta qanunvericiliyi, sosial sığorta sistemində fərdi uçotun tətbiqi mövzusunda tədbir keçirilmişdir

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun və Şərur Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şərur rayonunda idarə, müəssisə işçilərinin, özəl sektor üzrə hüquqi və fiziki şəxslərin, o cümlədən torpaq mülkiyyətçilərinin iştirakı ilə "Pensiya siyasəti, sosial sığorta qanunvericiliyi, sosial sığorta sistemində fərdi uçotun tətbiqi" mövzusunda tədbir keçirilmişdir.*

Tədbirdə çıxış edən Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Rövşən İsgəndərov bildirmişdir ki, sosial sahədə həyata keçirilən islahatlar nəticəsində sığorta-pensiya sisteminin qanunvericilik bazası təkmilləşdirilmiş, fərdi uçot sistemi qurulmuş, əhaliyə sosial sığorta şəhadətnamələri verilmiş və əhalinin maddi maraqlarını təmin edən müasir pensiya modeli yaradılmışdır.

Sosial sığorta qanunvericiliyinin izahı, könüllü sığortanın mahiyyəti və üstünlükləri, əmək pensiyaları haqqında qanunvericiliyin tətbiqi və izahı, pensiyaların təyinatı, ödənişi və müasir üsullarla həyata keçirilməsi, sosial sığorta sistemində fərdi uçotun tətbiqi ilə bağlı fondun aparatının şöbə müdirləri Yaşar Məmmədov, Vaqif Rəsulov, Zaur Qasımlı tədbir iştirakçılarına ətraflı məlumat vermişlər. Qeyd olunmuşdur ki, sosial sığorta hadisəsi zamanı sığortaolunana dəymiş ziyan sığortaçı təşkilat tərəfindən qanunvericiliyə uyğun qaydada ödənilir. Məcburi dövlət sosial sığortası bütün əmək müqaviləsi (kontraktı) üzrə işləyənlər barəsində həyata keçirilir. Belə ki, işəgötürən tərəfindən əmək müqaviləsi ilə işə qəbul olunan hər bir işçi məcburi dövlət sosial sığortası ilə əhatə olunmaqla sığorta iştirakçısına çevrilir. Məcburi dövlət sosial sığortası həyata keçirilən əmək müqaviləsi (kontraktı) üzrə çalışan işçilər sığortaolunan hesab olunur və onlara qanunvericilikdə nəzərdə tutulmuş qaydada sığorta şəhadətnaməsi verilir. Ona görə də



sosial sığortaya cəlb olunan hər bir şəxs dövlət tərəfindən ona verilən sosial təminat hüquqlarının qorunmasında maraqlı olmalıdır.

Vurğulanmışdır ki, qanunvericiliyə uyğun olaraq, müxtəlif fəaliyyət növləri üçün məcburi dövlət sosial sığorta haqları müəyyənləşdirilmişdir. Sosial sığortaya cəlb olunan şəxslər əgər öz fəaliyyətlərinə uyğun müəyyənləşdirilmiş məcburi dövlət sosial sığorta haqlarının vaxtlı-vaxtında ödənilməsini təmin edərlərsə, onda onlar özlərini baş verə biləcək sosial sığorta hadisələrindən sığortalamış olacaqlar.

Tədbirdə könüllü sosial sığortanın əhəmiyyəti barədə də ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, gələcəkdə bütün vətəndaşlar məcburi dövlət sosial sığorta haqları ilə yanaşı, könüllü qaydada da əlavə sığorta haqqı ödəməklə sığorta oluna biləcəklər. Bu da həmin vətəndaşların gələcəkdə əmək pensiyalarına əlavələrin hesablanmasına və alacaqları pensiyanın məbləğinin çox olmasına təsir göstərəcəkdir.

Fərdi uçot sisteminin əhəmiyyətindən də bəhs olunan tədbirdə qeyd edilmişdir ki, bu sistemlə əlaqədar yaradılan informasiya bazası sığortaolunanların gələcəkdə alacaqları pensiyanın hansı məbləğdə olacağını qabaqcadan müəyyənləşdirmələrinə, eyni zamanda onlar üçün lazım olan məlumatların istənilən rayon ərazisində yerləşən fondun yerli orqanından əldə etmələrinə imkan verir.

Qeyd olunmuşdur ki, sığortaolunanların sığorta stajlarının toplanılması onların əmək kitabçalarında əks olunan məlumatlar əsasında aparılır. Sığortaolunanın əmək kitabçasına əsasən, əmək fəaliyyəti barədə məlumatlar xüsusi hazırlanmış proqram təminatına işlənilir və həmin müddətlər vətəndaşın fərdi şəxsi hesabında sığorta stajı kimi öz əksini tapır. Əmək stajlarının toplanılması bütün sığortaolunanlar, o cümlədən fiziki şəxslər və torpaq mülkiyyətçiləri üzrə də aparılır.

2006-cı il 1 yanvar tarixinədək sığortaolunanların əmək fəaliyyətinin proqram təminatında qeyd olunması pensiya təyinatında onların həm staj baxımından pensiya təminatı hüququnun yaranmasına, həm də pensiyanın təyin olunması müddətinin tezləşdirilməsinə təsir edəcəkdir.

Əmək fəaliyyəti dövründə işləyən vətəndaşların sosial sığorta haqlarından yayınması gələcəkdə onları pensiya hüququndan və digər sığorta hadisələri zamanı sığorta ödəmələrindən məhrum etmiş olacaq. Buna görə də bütün vətəndaşların sığorta-pensiya sistemində aktiv iştirakçıya çevrilməsinin vacibliyi də tədbir iştirakçılarının nəzərinə çatdırılan məsələlərdən olmuşdur.

Sonra Şərur rayonunda sığorta-pensiya sistemi ilə əlaqədar görülən işlər haqqında DSMF Şərur Rayon Şöbəsinin müdiri Firuz Novruzov tədbir iştirakçılarına məlumat vermişdir.

Tədbirin sonunda fond tərəfindən yeni əmək fəaliyyətinə başlayan rayon sakinlərinə onların fərdi uçot sistemində qeydiyyata alındığını və onlar üçün fərdi şəxsi hesab açıldığını təsdiq edən sosial sığorta şəhadətnamələri təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Muxtariyyət dövründə Naxçıvan iqtisadiyyatının sürətli inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır

## *Həyata keçirilmiş uğurlu siyasət nəticəsində artıq muxtar respublika iqtisadiyyatı keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur*

***SSRİ-nin süqutu ərəfəsində bütövlükdə Azərbaycanda olduğu kimi, Naxçıvanda da uzun illər ərzində gərgin zəhmət hesabına yaradılmış iqtisadi potensial iqtisadiyyatın durğunlaşması və sonrakı dərin tənəzzülü, habelə baş verən anarxiya və xaosla əlaqədar olaraq məhv olmaq təhlükəsi ilə üzləşmişdi.***

Taleyin hökmü ilə ağır böhranla mübarizə, iqtisadi islahatların başlanması, sabitləşmə və dinamik inkişafla xarakterizə olunan muxtariyyət tariximizin müstəqillik mərhələsi də xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Elektrik enerjisinin kəsilməsi, təbii qaz verilişinin dayandırılması, bir sözlə, muxtar respublikanın blokadaya alınması ilə Naxçıvanda iqtisadi vəziyyət və insanların gündəlik yaşayışı dözülməz həddə çatmışdı. O vaxtlar naxçıvanlılarla birgə çətin şəraitdə yaşayan, 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilən ulu öndər Heydər Əliyevin apardığı gərgin işlər sayəsində Naxçıvanı bu ağır vəziyyətdən qurtarmaq mümkün olmuşdur. Naxçıvanın böhrandan çıxarılması üçün, ilk növbədə, siyasi sabitlik, sərhəd rayonlarında erməni təcavüzünün dayandırılması təmin edilmişdir. Dahi rəhbərin şəxsi nüfuzu, qərar qəbulunda prinsipiallığı, gərgin əməyi sayəsində Naxçıvan əhalisinin ərzağa, enerjiyə olan tələbatının ödənilməsi təmin edilmişdir. Sonra Naxçıvanın iqtisadi potensialından səmərəli istifadə yollarının müəyyənləşdirilməsi, xarici ticarət və əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində tədbirlər həyata keçirilmişdir. Blokada şəraitində iqtisadi təhlükəsizliyin və inkişafın təmin edilməsi məqsədilə islahat proqramlarının hazırlanması və tətbiqinə başlanmışdır. Bu proqramların başlıca cəhətləri bazar iqtisadiyyatının, azad ticarətin və xarici iqtisadi əlaqələrin yaratdığı imkanlardan maksimum şəkildə bəhrələnməkdən ibarət idi. Xarici investisiyaların muxtar respublikaya cəlb edilməsi, qonşu İran və Türkiyə dövlətləri ilə iqtisadi əlaqələrin yaradılması prioritet istiqamətlər hesab edilirdi.

1992-ci ilin may ayında Araz çayı üzərində Naxçıvanla Türkiyəni birləşdirən "Ümid" körpüsünün istifadəyə verilməsi, Türkiyədən Naxçıvan Muxtar Respublikasının zəruri ehtiyaclarının ödənilməsi məqsədilə kredit alınmasına nail olunması, Türkiyədən və İrandan Naxçıvana elektrik enerjisi verilişinə başlanması, Naxçıvanda İran və Türkiyə ilə ilk birgə müəssisələrin yaradılması, İran ərazisindən Bakıya gediş-gəlişi təmin edən Arazboyu avtomobil yolunun inşası, muxtar respublikada yığılıb qalmış məhsulların Türkiyəyə satılması üzrə müqavilələrin bağlanması məhz ümummilli lider Heydər Əliyevin şəxsi nüfuzu sayəsində əldə edilmiş uğurlar idi.

Naxçıvan iqtisadiyyatında aqrar sahənin tarixən mühüm rol oynadığı və qısa müddət ərzində nəticə verəcəyi nəzərə alınaraq 1992-ci ildə aqrar islahatların həyata keçirilməsinə başlanıldı. Torpaq islahatının həyata keçirilməsi, kolxoz və sovxozların ləğv edilərək onların əmlakının özəlləşdirilməsi, mal-qaranın əhaliyə satılması ərzaq məhsulları istehsalının artımında mühüm rol oynamışdır.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ilə Naxçıvan iqtisadiyyatı artıq təcrid olunmuş şəkildə deyil, ölkə iqtisadiyyatı ilə üzvi vəhdətdə inkişaf etməyə başlamış və muxtar respublika iqtisadi islahatların aktiv həyata keçirildiyi regiona çevrilmişdir.

1996-cı ildən başlayaraq iqtisadiyyatda müşahidə olunan dinamik artım Naxçıvan Muxtar Respublikasını ölkəmizin regionları arasında qabaqcıl mövqeyə yüksəltmişdir. Ölkə başçısının regionların inkişafına göstərdiyi yüksək dövlət qayğısı və bunun ifadəsi olaraq meydana çıxan regionların sosial-iqtisadi inkişafı istiqamətində qəbul edilmiş Dövlət proqramlarının icra edilməsi muxtar respublika iqtisadiyyatının artımına böyük təkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvana dəfələrlə səfər etməsi onun regionun problemləri ilə nə dərəcədə yaxından maraqlanmasının bariz göstəricisidir. Bu səfərlər çərçivəsində ölkə başçısının Naxçıvana təbii qaz verilişinin İran ərazisi vasitəsilə bərpa edilməsi ilə əlaqədar mərasimdə, Naxçıvan Modul Elektrik Stansiyasının, Biləv Su Elektrik Stansiyasının, Sement Zavodunun, onlarla iri istehsal, təhsil, səhiyyə, mədəniyyət, sağlamlıq müəssisələrinin açılışında iştirak etməsi, iri dövlətlərin marağını Naxçıvana cəlb edə biləcək beynəlxalq səviyyəli tədbirlərin burada keçirilməsi muxtar respublikanın inkişafına göstərilən dövlət qayğısına əyani sübutdur.

Artıq müasir dövrdə muxtar respublikamızda sosial, mədəni və iqtisadi sahələrdə baş verən sürətli yüksəliş Naxçıvan iqtisadiyyatının keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyması kimi qiymətləndirilə bilər. İnkişafın dəqiq müəyyən edilmiş hədəfləri, çevik və səmərəli islahatlar, qarşıdakı məqsədlərə uyğun qəbul edilən və reallaşdırılan Dövlət proqramları, innovasiyalı inkişaf və idarəetmə, mövcud potensialdan maksimum istifadə muxtar respublikanın müasir iqtisadiyyatını səciyyələndirən ən xarakterik xüsusiyyətlərdir. Sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət tarazlı və davamlı inkişaf üçün başlıca təkanverici qüvvə olmuş, regionda iqtisadi fəallıq yüksəlmiş, sahibkarların normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmışdır. Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, sahibkarlığın inkişafına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin məşğulluğunun artırılmasına nail olunmuşdur.

Naxçıvanda son illərdə həyata keçirilən quruculuq işlərini yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Mən çox şadam ki, Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir"***.

Həyata keçirilən irimiqyaslı islahatların nəticəsidir ki, 2012-ci ildə Naxçıvanda 2,1 milyard manat həcmində Ümumi Daxili Məhsul istehsal edilmiş, iqtisadi artım tempi 16,8 faiz təşkil etmişdir.

İxracyönümlü istehsal sahələrinin inkişaf etdirilməsi, rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin geniş şəbəkəsinin yaradılması sənaye sahəsində əsas strateji istiqamət kimi mühüm yer tutur. Bunun nəticəsidir ki, 2012-ci ildə sənaye məhsulu istehsalı əvvəlki ilə nisbətən 15,7 faiz artaraq 799 milyon 492,4 min manat həcmində olmuşdur. Sənaye məhsulu həcminin kənd təsərrüfatı məhsulunu 2,5 dəfə üstələməsi, eyni zamanda 281 milyon ABŞ dolları həcmində sənaye məhsulunun ixrac edilməsi isə tarixən aqrar təsərrüfatçılıq ənənələrinə malik olan Naxçıvan iqtisadiyyatının müasir strukturunda sənayenin artıq aparıcı mövqe qazandığının göstəricisidir.

Kənd təsərrüfatında yüksək nailiyyətlərin əldə edilməsinin əsasında muxtar respublikada bu sahənin Dövlət proqramları çərçivəsində inkişaf etdirilməsi dayanır. Kənd təsərrüfatı istehsalçılarına güzəştli kreditlərin verilməsi, lizinq xidmətinin genişləndirilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlər, öz növbəsində, muxtar respublikada il ərzində istehsal olunan kənd təsərrüfatı məhsullarının həcminin artmasını şərtləndirən əsas amillərdəndir. Belə ki, 2012-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 318 milyon 836 min manat təşkil etməklə ötənilki səviyyəni 9 faiz üstələmişdir.

Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi əlaqələrinin müasir strukturu onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi və daxili bazarın müdafiəsi tələbləri səviyyəsində formalaşdırılır. Son dövrlər aparılan məqsədyönlü tədbirlər muxtar respublikanın xarici ticarət dövriyyəsinin strukturunun və istiqamətlərinin genişlənməsinə, ticarət tərəfdaşlarının sayının artmasına səbəb olmuşdur. Xarici ticarətin strukturunun yaxşılaşması ixracda sənaye məhsullarının payının artması, hazır məhsul idxalının getdikcə aşağı düşməsi və texnologiya idxalının aktivləşməsi ilə xarakterizə olunur.

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Ali Məclisin Sədri cənab Vasif Talıbov Naxçıvan iqtisadiyyatında son illərdə əldə edilmiş yüksək göstəricilərdən bəhs edərək demişdir: ***"Sosial-iqtisadi inkişafın yekunu göstərir ki, muxtar respublikamız daha uğurlu nəticələrə və yeni-yeni nailiyyətlərə doğru inamla irəliləyir. Bütün bu uğurların əsasında isə Heydər Əliyev yoluna, quruculuq xəttinə sadiqlik, bu yolda göstərilən böyük əzmkarlıq, möhkəm qətiyyət, misilsiz dövlət və Vətən sevgisi dayanmışdır"***.

*Naxçıvan iqtisadiyyatında 1970-80-ci illərdə müşahidə edilən canlanma və inkişaf, müstəqilliyimizin ilk illərindən başlayaraq baş verən sürətli pozitiv dəyişikliklər və iqtisadi yüksəlişin müasir mənzərəsi belə bir faktı əminliklə ifadə etməyə əsas verir ki, muxtariyyət tarixində Naxçıvanda iqtisadiyyat quruculuğu xalqımızın ümummilli lideri Heydər Əliyevin adı, onun bilavasitə fəaliyyəti və quruculuq kursunun sədaqətlə davam etdirilməsi ilə bağlıdır.*

**Müslüm CABBARZADƏ**
***iqtisad üzrə fəlsəfə doktoru***

# Ulu öndərimiz sağlam ekoloji mühitin yaranmasına həmişə vacib məsələlərdən biri kimi yanaşmışdır

***Yurdumuzun təbii abidə və sərvətlərinin, onun flora və faunasının qorunmasına müxtəlif dövrlərdə səy göstərilsə də, 1969-cu ilədək bu sahədə keçirilən tədbirlər sistemli xarakter almamışdır. Yalnız ötən əsrin 70-ci illərinin əvvəllərindən – xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründən etibarən təbiətin mühafizəsinə dövlət səviyyəsində diqqət və qayğı artırılmışdır.***

Ulu öndərimizin hakimiyyətə gəlişi ilə Azərbaycanın ekoloji siyasəti kökündən dəyişilmiş və ayrıca ekoloji konsepsiya yaradılmışdır. Təkcə 1969-1982-ci illərdə ekologiya, təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair 8 qanun, 32 qərar qəbul olunmuş, bu sahədə elmi kadrların hazırlığına xüsusi diqqət yetirilmişdir.

Məlumdur ki, XXI əsr dünyada ekologiya, sabit inkişaf, sağlamlıq əsri elan edilmişdir. Lakin göründüyü kimi, xalqımızın böyük oğlu hələ ötən əsrin 70-ci illərindən ölkəmizdə yeni ekoloji təfəkkürün formalaşması prosesinə başlamışdır. Onun göstərişi ilə 1976-cı ilin 31 dekabrında respublika hökuməti "Azərbaycan SSR-in məhv olmaq təhlükəsi ilə üzləşən bitki və heyvan növlərinin qorunması haqqında" qərar qəbul etmişdir. Qərarda Azərbaycanda, o cümlədən Naxçıvanda məhv olmaq təhlükəsi altında olan bitki və heyvan növlərinin dəqiqləşdirilməsi, onların qorunması bir vəzifə kimi qarşıya qoyulurdu. 1977-ci il iyul ayının 25-də bu barədə Nazirlər Sovetinin növbəti qərarından sonra flora və faunanın "Qırmızı kitab"ı hazırlanmışdır. "Qırmızı kitab"a salınan 68 onurğasız heyvanın 41 növü Naxçıvan ərazisində yayılmışdır.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra təbiətin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər daha geniş şəkildə davam etdirilməyə başlanmış və bunun üçün müvafiq hüquqi baza yaradılmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən 1998-ci ildə "Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında" CİTES Konvensiyası ratifikasiya edilmişdir. Azərbaycan Respublikasının "Heyvanlar aləmi haqqında" 4 iyun 1999-cu il tarixli Qanununda qorunan heyvanların artırılması və istifadə həddinə çatdırılması qarşıya əsas məqsədlərdən biri kimi qoyulmuşdur. "Ətraf mühitin mühafizəsi haqqında" 8 iyun 1999-cu ildə qəbul edilmiş Qanunda təbiətin bütün sahələri, o cümlədən biomüxtəlifliyin, bitki və heyvanlar aləminin qorunması ön plana çəkilmişdir. Beləliklə, 2000-ci il iyulun 15-də yeni "Qırmızı kitab" haqqında Əsasnamə qəbul edilmişdir.

Ümummilli liderimizin "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun təsdiq edilməsi barədə 27 yanvar 2003-cü ildə imzaladığı Fərman bu sahədə dövlət siyasətinin hüquqi-iqtisadi və təşkilati əsaslarını müəyyən etmiş, münasibətləri tənzimləmişdir.

Ulu öndərimiz deyirdi: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** Bəli, bu gün tam əminliklə deyə bilərik ki, ulu öndərimizin arzuları ölkəmizdə uğurla reallaşdırılır. 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" və "Meşələrin bərpa edilməsi və artırılmasına dair" Milli proqramların, həmçinin Azərbaycan Respublikasında hidrometeorologiyanın inkişafına dair Dövlət Proqramının icrası istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2006-cı il 28 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı"nın icrasını təmin etmək məqsədilə ölkədə konkret tədbirlər həyata keçirilmişdir.

Respublikamızın digər regionları kimi, muxtar respublikamızda da ekoloji tarazlığın qorunması, təbiətin zənginləşdirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, Naxçıvanda xüsusi mühafizə olunan təbiət ərazilərinin şəbəkəsi ildən-ilə genişləndirilir. Son 10 ildə Şahbuz Dövlət Təbiət Qoruğu (3 min 139 hektar), Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı (12 min 131 hektar), "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 68 min 911 hektar sahəni əhatə edən "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Culfa və Ordubad rayonlarının ərazilərində olan dövlət meşə fondu, Şahbuz, Culfa, Ordubad rayonlarının ərazilərindəki yay otlaqları hesabına ümumi ərazisi 42 min 787 hektardan çox olan Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı yaradılmışdır. Beləliklə, hazırda muxtar respublikadakı qoruq və yasaqlıqlar ümumi ərazinin 27 faizini təşkil edir ki, bu da Qafqaz ekoregionunda mövcud olan göstəricilərdən xeyli üstündür. Bununla yanaşı, mövcud flora və faunanın qorunub saxlanması üçün iki cilddən ibarət "Qırmızı kitab" tərtib edilmişdir.

Son 17 ildə flora və faunanın qorunması, artırılması və ekoloji mühitin sağlamlaşdırılması sahəsində görülən işlərin nəticəsidir ki, Naxçıvan artıq yaşıllıqlar diyarına çevrilmişdir.

Muxtar respublikada meşə fondunun mühafizə olunması, bərpası, yeni yaşıllıqların salınması istiqamətində aparılan ekoloji tədbirlərin intensivliyi də diqqət mərkəzindədir. Təkcə ötən il 525 hektar sahədə 300 mindən çox ağac və gül kolları əkilmişdir. Regionun ən böyük rayonu olan Şərurda isə 11,5 hektar sahədə meşəsalma, 45 hektar sahədə meşəbərpa işləri aparılmış, 24 min 438 ədəd meyvə, 21 min 150 ədəd meşə ağacı, 5 min 290 ədəd gül kolu, 3 min 50 ədəd dekorativ ağac olmaqla, ümumilikdə, 53 min 928 ədəd ting və gül kolu əkilmişdir.

*Göründüyü kimi, ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvanda təbiətin mühafizəsi, flora və faunanın zənginləşdirilməsi istiqamətində ulu öndərimizin ideyaları ardıcıl şəkildə və yaradıcılıqla davam etdirilir. Bizim isə borcumuz və vəzifəmizdir ki, bu sahədə həyata keçirilən tədbirlərdə əsl vətəndaş mövqeyi nümayiş etdirək.*

**Vaqif CABBAROV**
***Şərur Rayon Ekoloji Tərbiyə Mərkəzinin direktoru***

# POS-terminallardan niyə istifadə etmirik və ya nağdsız ödənişlərin üstünlüklərindən xəbərimiz varmı?

***Nağdsız ödəniş pul nişanlarından istifadə etmədən pul vəsaitlərinin bir bank hesabından digər bank hesabına köçürülməsi vasitəsilə həyata keçirilən hesablaşmadır. Belə ödənişlər vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapı, daşınması, saxlanması və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında, nəticədə isə iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır. Ödənişlərin həcminin artırılması vergitutma bazasının ciddi şəkildə genişlənməsi üçün mühüm mənbədir. Nağdsız hesablaşmaların tətbiqi vergi ödəyiciləri tərəfindən maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun düzgün aparılması, vergitutma bazasının, vergiyə cəlb olunan gəlirlərin düzgün müəyyən edilməsi, daxili tələbatın əvvəlcədən proqnozlaşdırılması baxımından əhəmiyyətli məsələdir.***

Hazırda dünyada nağdsız ödəniş sistemlərindən geniş istifadə olunur. İsveç nağdsız pul dövriyyəsinə görə birinci yerdə dayanır. Bu ölkədə nağd pul dövriyyəsi cəmi 3 faizdir. İnkişaf etmiş Asiya ölkəsi olan Yaponiyada isə nağd pulla aparılan əməliyyatlar ümumi dövriyyənin cəmi 5 faizini təşkil edir. Avropa Birliyində analoji göstərici 9 faizdir. ABŞ-da alğı-satqı əməliyyatlarının, demək olar ki, 80-90 faizi plastik kartlar vasitəsilə həyata keçirilir. Bu əməliyyatlar nəticəsində həmin ölkələrdə inflyasiyanın qarşısının alınmasında artıq pul kütləsinin rolu minimuma endirilib və büdcə xərcləri xeyli azaldılıb. Eyni zamanda bütün əməliyyatların banklar və plastik kartlar vasitəsilə aparılması vergi orqanlarının nəzarət funksiyalarının həyata keçirilməsi üçün xərclənən vəsaitlərin də azaldılmasına gətirib çıxarıb. Çünki nağd hesablaşma aparılan sahələrdə vergidənyayınma halları nağdsız hesablaşmalar aparılan sahələrə nisbətən daha çoxdur.

Adıçəkilən ödənişlərin aparılmasında POS-terminalların rolu əvəzsizdir. Məlumat üçün bildirək ki, ödəniş kartı ilə ticarət mərkəzlərində, mağazalarda, iaşə obyektlərində aparılan ödənişlər elektron ödəniş aləti olan POS-terminal vasitəsi ilə həyata keçirilir. POS-terminal kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, valyuta mübadiləsi əməliyyatlarının aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıqdır. POS-terminal həm ödəniş kartı sahibləri, həm də biznes subyektləri üçün faydalıdır. Adıçəkilən terminal üzrə əməliyyatlar həyata keçirilərkən, bir qayda olaraq, iki nüsxədə qəbz çap olunur. İmzalanmış qəbzin bir nüsxəsi təsərrüfat subyektində qalır, digəri isə kart sahibinə verilir. Bu qəbzin alınması malın dəyişdirilməsi, geri qaytarılması və istehlakçıların hüquqlarının müdafiəsi baxımından zəruridir.

Ölkəmizdə ödəniş kartları istifadəçilərinin sayı ilbəil artmaqdadır. Əksər müəssisə və təşkilatlarda, təhsil və səhiyyə sahələrində işləyənlərin əməkhaqları, pensiya və müavinətləri həmin şəxslərin bank hesablarına daxil olur. Onlar da bu vəsaitdən ödəniş kartları vasitəsilə müxtəlif əməliyyatlar aparırlar. Ancaq nağdsız ödənişlərdən istifadə hələ də istənilən səviyyədə deyil. Ölkə başçısının sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti cənab İlham Əliyev bu barədə demişdir: ***“Azərbaycanda nağdsız ödəmələr çox aşağı səviyyədədir. Bu, böyük problemdir. Bu bir tərəfdən bu sistemdə şəffaflığın tam təmin edilməsi üçün bizə imkan vermir, eyni zamanda xoşagəlməz halların mövcudluğunu da şərtləndirir. Hesab edirəm ki, bu il daha da ciddi tədbirlər görülməlidir. Mən təkliflər gözləyirəm ki, nağdsız hesablaşmaların, ödəmələrin sayı artsın. 2012-ci ildə, doğrudan da, bu sahədə çox böyük işlər görülmüşdür və mən bu işləri qiymətləndirirəm. Hesab edirəm ki, biz bu il və bundan sonrakı illərdə də bu sahəyə çox ciddi fikir verməliyik. Burada, necə deyərlər, heç bir yeni üsul icad etməməliyik, inkişaf etmiş ölkələrin təcrübələrinə baxmaq kifayətdir”.***






Karikatura Cavid İsmayılovundur

POS-terminallardan istifadənin yaxşılaşdırılması ilə bağlı fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “2012-ci ilin yekunları və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə də konkret tapşırıqlar verilmişdir. Bu müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bildirmişdir ki, iqtisadi fəaliyyətin bütün sahələrində həyata keçirilən və mümkün olan maliyyə əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılması təmin olunmalıdır. Bunun üçün Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməli, əməliyyatların bank hesabları vasitəsilə aparılmasına nəzarəti gücləndirməlidirlər.

Bundan başqa, Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinə tapşırmışdır ki, aidiyyəti orqanlarla birlikdə muxtar respublikanın ticarət obyektlərində alğı-satqı əməliyyatlarının digər valyutalarla aparılmasının qarşısını alsın, Azərbaycan manatının əsas tədavül vasitəsi olmasına nəzarəti artırsın, quraşdırılan POS-terminallardan səmərəli istifadənin təmin olunması üçün əhali və sahibkarlıq subyektləri arasında izahat işlərini gücləndirsin.

Hazırda muxtar respublikada böyük ticarət, xidmət və ictimai iaşə obyektlərində POS-terminalların tətbiqi həyata keçirilir. ***Bəs sahibkarlar POS-terminalların quraşdırılmasını necə qarşılayırlar? Müəyyən xərclər hesabına quraşdırılan terminallar işlək vəziyyətdədirmi? Bu terminallardan istehlakçılar istifadə edirlərmi? Terminalların quraşdırılması prosesi necə gedir?*** Bütün bu suallara cavab tapmaq üçün bəzi araşdırmalar apardıq və etiraf edək ki, nəticələr o qədər də ürəkaçan olmadı.

Oxucularımızın diqqətinə çatdıraq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları”na əsasən, sözügedən terminalların 2012-ci ildə Bakı, Gəncə və Sumqayıt şəhərlərində, 2013-cü ildə isə ölkənin digər bölgələri, eləcə də Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində quraşdırılmasının başa çatdırılması nəzərdə tutulub. 2015-ci ilə qədər isə bu prosesin kənd yaşayış məntəqələrini də əhatə etməsi planlaşdırılıb.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, ***hazırda muxtar respublika üzrə POS-terminalların sayı 96 ədəd, bankomatların sayı isə 84-dür.*** Terminallar, əsasən, banklarda və onun filiallarında, iri ticarət və xidmət müəssisələrində quraşdırılıb. Dövriyyədə olan ödəniş kartlarının sayı 2012-ci ildə 21 min 298 ədəd artaraq 161 min 268 ədədə çatıb. Ötən il POS-terminallar vasitəsi ilə nağdsız ödənişləri nağd pul dövriyyəsi ilə müqayisədə cüzi göstərici adlandırmaq olar. Bu, onunla əlaqədardır ki, plastik ödəniş kartlarından əhali, əsasən, pul vəsaitlərinin reallaşdırılması məqsədilə istifadə edir. Yəni alış-verişdə, xidmət sahələrində ödəniş kartlarından istifadə zəifdir, başqa sözlə, cəmiyyətdə nağdsız ödəmələrə laqeydlik mövcuddur.

Qeyd edək ki, muxtar respublikada POS-terminalların quraşdırılması ilə “Kapital Bank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikası Baş İdarəsi, Beynəlxalq Bankın Naxçıvan filialı, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti, “Bank of Azerbaijan”ın Naxçıvan filialı məşğul olur və qəzetimizə təqdim edilən məlumatlarda quraşdırılan terminalların işlək vəziyyətdə olduğu göstərilir. Ancaq bir sıra ticarət obyektlərində apardığımız müşahidələr zamanı gördük ki, alıcı ödəməni kart vasitəsilə həyata keçirmək istəyir, lakin bu əməliyyatı icra edə biləcək kimsə yoxdur və ya POS-terminal işləmir. Məsələn, ***“Gəmiqaya İnşaat Materialları”, “Cahan İnşaat Materialları”, “Cahan Alış-Veriş Mərkəzi”*** kimi iri ticarət obyektlərində POS-terminalların işləmədiyinin şahidi olduq. Naxçıvan şəhərindəki ***“Sev-al” mağazasında, “Naxçıvan” marketdə, şəhərin “İstiqlal”, Ə.Qəmküsar, Əziz Əliyev küçələrindəki mağazalarda*** bizim təkidimizdən sonra POS-terminalları işlətmək qərarına gəldilər. Bundan başqa, ***“Bank of Azerbaijan”ın Naxçıvan filialı tərəfindən təqdim edilən siyahıda terminal quraşdırılan obyektlər sırasında Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yerləşən “Məişət avadanlığı və elektronik cihazların satışı” mağazasının*** da adı çəkilir. Ancaq adıçəkilən mağazada POS-terminaldan istifadə etmək arzusunda olduğumuzu bildirdikdə mağaza işçisi dedi ki, bizdə, ümumiyyətlə, POS-terminal quraşdırılmayıb. Bununla bağlı həmin banka müraciət etdik. Bankdan bizə sözügedən mağazada POS-terminalın quraşdırıldığını göstərən sənəd verildi. Deməli, satıcı burada POS-terminalın quraşdırılmasından xəbərsizdir. Yaqin ki, bu mağazada da POS-terminal anbarda bir küncə atılıb və tamamilə yaddan çıxıb. Ümumiyyətlə, ticarət mərkəzlərində az sayda POS-terminala rast gəldik.

Bu da onu göstərir ki, POS-terminalların quraşdırılması, terminallara nəzarət və maarifləndirmə işləri ləng gedir. Halbuki bu terminalların quraşdırılması, işçilərin bu barədə maariflendirilməsi o qədər də vaxtaparan və böyük zəhmət tələb edən proses deyil.

Bəzi mühafizəkar iş adamlarının fikirlərindən belə nəticəyə gəlmək olar ki, onlar POS-terminalların quraşdırılmasında o qədər də maraqlı deyillər. Vergidən yayınmaq istəyən bəzi işbazlar bu sahədə baş verəcək tərəqqiyə biganə yanaşırlar. Sahibkar bilməlidir ki, müəssisədə POS-terminalın quraşdırılması və işlək vəziyyətdə olması ona hesablaşmaların rahat aparılması, qalıq məbləğin müştəriyə qaytarılmasına ehtiyacın yaranmaması, müştərilərin sayının artırılması, nağd vəsaitlərlə olan əməliyyatlarda iş yükünün, inkassasiya xidmətlərinə olan ehtiyacın azaldılması, mal və xidmətlər üzrə hesablaşmalar zamanı təhlükəsizliyin artırılması, saxta pullarla hesablaşma riskinin aradan qaldırılması imkanı yaradır.

Sözügedən məsələ ilə bağlı alıcılarla da söhbətlər apardıq və bu söhbətlər zamanı maraqlı məqamlar ortaya çıxdı. Belə ki, alıcılar POS-terminal quraşdırılan məntəqələrin bəzilərində sahibkarın ödəyəcəyi vergini alıcının vəsaiti hesabına kompensasiya etməyə cəhd etdiyini, yaxud satıcıların POS-terminallardan istifadəni bacarmadıqlarından bir çox hallarda onları yaxınlıqdakı bankomata yönləndirdiklərini, ödəniş məbləğini nağd formada əldə etdikdən sonra alış-verişə başladıqlarını deyirlər. Əksər hallarda isə POS-terminallar işləmir. Bütün bunlar onu göstərir ki, POS-terminallardan istifadədə sahibkar və istehlakçıların ortaq məxrəcə gətirilməsinə, başqa sözlə, hər iki tərəfin xeyir görəcəyinə inandırılmasına böyük ehtiyac var. ***Əgər alıcı POS-terminaldan istifadə etmək istəyirsə, lakin ona terminalın işləmədiyi söylənilirsə, demək, o obyektdə istehlakçının hüquqları pozulur. İstehlakçıların hüquqlarının qorunması isə Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin birbaşa vəzifəsidir.***

Bəs bu sahədə mütəxəssis rəyi necədir? Fikrini soruşduğumuz mütəxəssislərin əksəriyyəti qeyd etdi ki, bu sahədə ciddi təbliğata ehtiyac var. Vətəndaş inanmalıdır ki, ödəniş kartları nağd puldan daha etibarlıdır. O bilməlidir ki, üzərində nağd pul olmadıqda onu itirmək və ya başqa arzuolunmaz hadisələrlə qarşılaşmaq qorxusu da olmayacaq, ödədiyi məbləğ vergiyə cəlb ediləcək.

*Nağdsız ödənişlər vergidənyayınma hallarına qarşı səmərəli mübarizə vasitələrindən biridir. Bu üsulla həm də pul dövriyyəsinin strukturunu müsbət fonda dəyişmək olar. Çünki dövriyyədə nağd pulların artımı birbaşa inflyasiyaya da təsir göstərən amildir.*

**Səbuhi HÜSEYNOV**

# İlk milli peykimiz orbitə çıxarılır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı nitqində Azərbaycanın ilk süni peykinin orbitə çıxarılması üçün konkret tədbirlər görülməsinin vacibliyini vurğulamış və bu istiqamətdə zəruri tədbirlərin görülməsi üçün konkret göstərişlər vermişdi. Dövlət başçısının “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında” 2008-ci il 4 noyabr tarixli Sərəncamı və 2009-cu il 17 avqust tarixində təsdiq etdiyi “Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı” Azərbaycanın dünya peyk ailəsinin üzvünə çevrilməsinə, ölkədə peyk texnologiyalarının istehsalı tətbiqinə geniş imkanlar açmışdır.

Hazırda Azərbaycan kosmik sənayenin yaradılmasının ilkin mərhələsindədir. Mərhələlərdən birincisi, ilk növbədə, telekommunikasiya peykinin orbitə çıxarılmasıdır.

Qeyd edək ki, ilk milli peykimiz ABŞ-ın aparıcı peyk istehsalçısı olan “Orbital Sciences Corporation” şirkəti tərəfindən “STAR-2” platforması əsasında hazırlanmışdır. Hazırda bu platforma üzərində yığılmış 22 peyk böyük müvəffəqiyyətlə istismar edilir.

İlk milli peykin bəzi texniki göstəriciləri barədə qısaca məlumat verək. Öncə onu qeyd edək ki, peykin tam adı belədir: Azerspace/Africasat-1a. Peykin əhatə dairəsinə Orta Asiya və Avropa ölkələri ilə yanaşı, Afrika regionu da daxil olduğu üçün belə adlandırılmışdır. “Azerspace-1” ekvatorun üzərində Yerdən 36000 km məsafədə Geostasionar orbitdə, 46 dərəcə şərq uzunluğunda yerləşəcək. Yer səthinə nəzərən peyk Somali yaxınlığında Hind okeanı üzərində olacaqdır. “Azerspace-1”in istismar müddəti 15 ildir.

Peyk Malayziya hökumətinə məxsus, Malayziyanın “Measat Satellite Systems” şirkəti tərəfindən istifadə olunan və Azərbaycan hökumətinə icarəyə verilən 46 dərəcə şərq uzunluq dairəsində, geostasionar orbitdə yerləşəcək, Şərqi Avropa, Şimali Afrika, Mərkəzi Asiya, o cümlədən Qafqaz və Yaxın Şərq regionuna yüksək keyfiyyətli yayım xidməti göstərəcəkdir.

Peykin orbitə çıxarılması üçün zəruri olan şərtlərdən biri orbital mövqeyə malik olmaqdır. Beynəlxalq Telekommunikasiya İttifaqı 3 orbital sahəni Azərbaycanın mülkiyyətinə vermişdir. Onlardan ikisi ölkənin daxili tələbləri üçün, biri isə beynəlxalq istifadə üçün nəzərdə tutulur.

Qeyd edək ki, peyk resurslarının 20 faizi ölkəmizin yerli tələbatını ödəmək üçün istifadə ediləcək, qalan 80 faizi isə dünya bazarlarına ixrac olunacaqdır. Təxminən 40 faizinin satışı üçün şərti müqavilələr imzalanmışdır.

“Azərkosmos” ASC-nin peyklərin idarə olunması üçün regional idarəetmə mərkəzinin və ehtiyat idarəetmə mərkəzinin yaradılması başa çatdırılmışdır. Peyklərin idarə olunması üçün Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzi (ƏYPİM) Abşeron rayonu ərazisində, Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzi (EYPİM) isə Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində tikilmişdir. Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin tikintisinə ötən ilin aprel ayında başlanılmış, ilin sonuna istismar üçün tam hazır vəziyyətə gətirilmişdir. Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzində problem yarandıqda idarəetmə avtomatik olaraq EYPİM-ə keçəcək.

Mərkəzlərdən təkcə Azərbaycanın yox, region üzərindən uçan digər ölkələrə məxsus peyklərin də idarə olunması üçün istifadə ediləcəkdir.

Peyk rəqəmli teleradio yayımı xidmətlərinin göstərilməsi, sürətli internet şəbəkəsinə çıxış, məlumatların ötürülməsi, “VSAT” multiservis şəbəkəsinin, eləcə də hökumət əlaqələrinin yaradılması üçün nəzərdə tutulmuşdur.

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin mətbuat xidməti***

*Rusiyanın “Drujba narodov” jurnalında Əkrəm Əylislinin “Daş yuxular”da çərənləməsi ölkəmizdə böyük nifrətlə qarşılandı. Öz xalqına arxadan zərbə vuran Əkrəm Naibovun bu hərəkətinə qarşı hər bir vətəndaş, ziyalılar, ictimaiyyət nümayəndələri ciddi etiraz bildirməkdədir. Bununla bağlı redaksiyamıza hər gün yüzlərlə məktub, teleqram daxil olur. Onlardan bir neçəsini oxucularımıza təqdim edirik.*

# Redaksiyamıza daxil olan məktub və teleqramlardan sətirlər

***Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının üzvləri öz məktublarında qeyd edirlər ki,*** “Əkrəm Əylislinin yazdığı “Daş yuxular” əsəri Azərbaycan xalqına arxadan vurulan zərbədir. Buna nə ad vermək olar? Məgər Əkrəm Əylisli 1918-1920-ci illərdə Bakıda, Qubada, Gəncədə, Naxçıvanda, Lənkəranda və Azərbaycanın digər bölgələrində azərbaycanlıların ermənilər tərəfindən qanına qəltan edildiyini, kəndlərin, evlərin dağıdıldığını, azərbaycanlıların öz ata-baba yurdlarından qovulduğunu, minlərlə insanın ermənilər tərəfindən vəhşicəsinə öldürüldüyünü bilmirmi? Əkrəm Əylislinin qondarma “Daş yuxular”ı bir daha sübut edir ki, o, azərbaycanlı kimi şərəfli adı daşımağa layiq deyil”.

***Naxçıvan Şəhər Ağsaqqallar Şurasının üzvləri yazırlar:*** “Azərbaycanı istəməyənlərin təsiri altına düşən, erməni qanı daşıyan Əkrəm Naibyana biz Naxçıvan ağsaqqalları nifrətimizi bildirir və ona “ar olsun” deyirik. Belə bir vətən xaininə Azərbaycan xalqı daim tüpürəcək və lənət yağdıracaqdır”.

Naxçıvan şəhərində yaşayan ziyalı, dosent ***Bəhruz Məmmədov***un redaksiyamıza göndərdiyi məktubundan: “Daş yuxular” adlı bədnam “əsəri” oxudum. Bir anlığa düşündüm ki, bunu Azərbaycanın yazıçısı yox, Ermənistanın yazıçısı yazıb. Ermənilərin XIX-XX əsrlərdə azərbaycanlıların başına gətirdikləri faciələr artıq dünyanın müxtəlif ölkələrində də yayılıb. Tərəqqipərvər bəşəriyyət erməni faşistlərinin belə hərəkətlərini insanlıqdan uzaq olan bir hərəkət kimi qəbul etdiyi bir vaxtda Əkrəm Naibov kimi bir nankor yazıçı “Daş yuxular” sərsəmləməsi ilə erməniləri müdafiə edir. Unudur ki, bu gün Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlının yaşamaması, minillik tarixi abidələrimizin tamamilə məhv edilməsi, ata-babalarımızın qəbirlərinin dağıdılması, Xocalı soyqırımı kimi vəhşiliklər ermənilər tərəfindən həyata keçirilib”.

Şair-publisist ***Xanəli Kərimli*** yazır ki: “Sənin kimi bir yazıçının yaşının 75 illiyində “Daş yuxular” kimi əsər yazmağını və bu əsərdə çörəyi, suyu ilə pərvəriş tapdığın Azərbaycan torpağını aşağılamağını nə bu millət, nə də tarix bağışlayacaq”.

Qeyd edək ki, bəzi idarə, müəssisə və təşkilatlar tərəfindən kollektiv şəkildə redaksiyamıza müraciət edənlər, Əkrəm Əylislinin bu hərəkətinə hiddətini bildirənlər də çoxdur. Belə teleqramlardan birini Culfa rayonunda çıxan ***“Arazın səsi” qəzetinin kollektiv***indən almışıq. Teleqramda oxuyuruq: “Sən həmin Əkrəmsən ki, çox sevdiyin “Drujba narodov” jurnalında bir neçə il əvvəl dərc olunmuş müsahibəndə millətimizi “kütlə” adlandırmışdın. Bununla sən azərbaycanlılara olan münasibətini elə o vaxt ortaya qoymuşdun. Bu gün sən desən də ki, baba və nənələrin azərbaycanlıdır, heç kim buna inanmayacaq. Erməni dəyirmanına su tökən Əkrəm, sən öz xalqına şərböhtan yağdırmaqla xəcalət çəkmədinmi? Yəqin ki, yox. Çünki sənin bir ayağın artıq ermənilərin yanındadır. Biz görmüşük ki, bu yaşında insan kamilləşər, səhvlərinin bağışlanması üçün Allahına dua edər, xalqından üzr istəyər. Sən bu hərəkətinlə xalqına düşmən kəsildin. Əminliklə bildiririk ki, sənin cəsədini bu torpaq qəbul etməyəcək. Azərbaycanlı şəhidlərin ruhu səni həmişəlik təqib edəcəkdir”.

Qeyd edək ki, redaksiyaya məktub göndərənlər içərisində Əylis kənd sakinləri də çoxluq təşkil edir. Kənd sakini ***Tofiq Hüseynov*** yazır: “Əkrəm, sənin “Daş yuxular” əsərin azərbaycanlılara qarşı çox böyük təxribatdır. Sən erməniləri müdafiə etmisən. Ermənilərə kömək edənlər bizim düşmənimizdir. Sənin nəinki əylislilər, hətta azərbaycanlılar haqqında danışmağa ixtiyarın yoxdur”.

Aşağı Əylis kənd tam orta məktəbinin müəllimi ***Vidadi Quliyev***in məktubundan sətirlər: “Sənin ədəbi təxəllüsünü bilə-bilə yazmadım. Çünki Azərbaycanın qədim kəndlərindən biri olan əzəli türk məskəni Əylis kəndinin adını təxəllüs kimi işlətməyin bütün Ordubad sakinlərinə təhqirdir. Sənin “Daş yuxular” “romanını” səngərin əksində durub Azərbaycan tərəfinə atılan güllə kimi qiymətləndirirəm”.

Ordubad rayonundan ***Həsən Məmmədov*** redaksiyaya ünvanladığı teleqram vasitəsilə bədnam “yazıçı”ya deyir: “Sənin “Daş yuxular” romanının bəzi məqamları ilə tanış oldum və bu əsəri yazanın azərbaycanlı olduğuna şübhə etdim. Sən bu cızmaqaranla nəinki erməni dəyirmanına su tökürsən, hətta özünü ermənilərin özündən betər erməniləşdirirsən. Sənə kim haqq verib ki, Naxçıvan torpağını erməni torpağı kimi qələmə verirsən, Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımızı “yeraz” adlandıraraq aşağılayırsan? Sən Əylisi erməni kəndi kimi qələmə verəcək qədər şərəfsizsən. Sənin Zori Balayandan fərqin nədir? Mən təklif edirəm ki, sənin genetik kodun araşdırılsın və azərbaycanlı olub-olmadığın üzə çıxarılsın. Sən bu gün ordubadlıların üz qarasısan. Sənə ar olsun”.

“Əkrəmin dünyada ədalətsizliyin yoxa çıxdığı, ikili standartların tüğyan etdiyi bir zamanda bizə məlum olan tarix boyu türk qanına susayan erməni iblislərinin təəssübünü çəkməsini heç cür ağlıma sığışdıra bilmirəm. Görkəmli tarixi şəxsiyyətlər, hətta ermənilərin özləri belə, ermənilərin şərəfsizliyini etiraf ediblər. Rus şairi Puşkin yazırdı ki, sən əqidəsizsən, şərəfsizsən, xainsən, canisən, çünki sən ermənisən. Əkrəm, sən erməni millətinə vəkillik etdiyinə görə canisən. Allah sənə lənət eləsin. Şeytana aldanıb dünya malına satılan xain! Mixail Qorbaçov ermənilərə havadarlıq edib, əlini azərbaycanlıların qanına batırıb Azərbaycan pulu ilə təsis olunmuş Nobel mükafatına layiq görüldüyü kimi, sən də Vətənə, millətə xəyanətinə görə Nobel mükafatı ala bilərsən. Vətənini, millətini, şərəfini düşmən mükafatlarına satana lənət. Üzərində gəzdiyin torpaq qənimin olsun”. Bu fikirləri Babək rayonunun Nehrəm kənd sakini ***Əhməd İbrahimov*** yazır.

Daha bir məktubu oxuculara təqdim edirik. Məktubu Ordubad rayonunun Vənənd kəndindən ***Məhəmməd İbadov*** göndərib. O yazır: “Rusiyanın “Drujba narodov” jurnalında dərc olunmuş “Daş yuxular” romanının bəzi hissələrini internet saytları vasitəsilə oxudum. Bir ziyalı kimi çox dərin təəssüf hissi keçirdim. Əkrəm Əylisli, dırnaqarası romanında “yeraz” adlandırdığın qanqardaşlarımızın başlarına erməni faşistlərinin açdığı müsibətlərdən xəbərin varmı? Ən azı 8 dəfə deportasiyaya məruz qalmış Qərbi Azərbaycan əhalisini təhqir etməyə kim sənə haqq verib? Yazırsan ki, türklərin öldürdükləri hər erməniyə bir şam yandırılsaydı, ayın işığı görünməz olardı. Sərsəmləyirsən ki, Əylisdə yaşayanların yarısından çoxu erməni idi. 1918-ci ildə türklər kənddəki bütün erməniləri güllələdilər. Bu yalan məlumatı sənə hansı erməni verib? Sən kimə xidmət edirsən? Sən özün erməni qanı daşıyırsan. Hələ uzaq tarixi demirəm. Bilirəm ki, tarixdən savadsızsan. Heç olmasa, 20 Yanvar, Xocalı faciələri sənin vicdanını sızlatmır? Sənin “Daş yuxular” romanının ermənilərin işğalçı siyasətinə bəraət qazandırmaqdır. Sən faktiki olaraq Qarabağ və Naxçıvanı erməni torpağı kimi qələmə verirsən. Əylisin çörəyi sənə haram olsun”.

Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin müəllimi ***Azər Məmmədov*** redaksiyamıza ünvanladığı məktubda yazır: “İndi də hədyanlar, böhtanlar yazmağa başlamısan? Sinəsinə çalın-çarpaz dağ çəkilən, hələ də övladları erməni əsirliyində olan, Xocalı nisgilli bir xalqın nə sənin kimi yazıçıya, nə də sənin “Daş yuxular”ına ehtiyacı var. Diriykən özünə gor qazdın. Milli qüruru olmayan nadan şərəfsiz”.

Şərur rayonundan ***Sevda İsmayılova***nın da məktubunu sizə təqdim edirik: “Azərbaycanın çörəyini yeyib ona xəyanət edənlərə ar olsun. Öz genindən xəbəri olmayan bir yazıçının Azərbaycanda yaşamağa haqqı yoxdur. Qoy müqəddəs Vətənimiz üçün şəhid olanlarımızın ruhu səni qarabaqara izləsin. Qoy göylər sənə rəhmət əvəzinə lənət oxusun. Şeytan kimi həmişəlik lənətlik olasan, satqın”.

Şahbuz rayonundan ***Camal Cəmalov*** yazır: “Əkrəm Əylisli, “Daş yuxular” adlı “əsər”in ilə düşmən dəyirmanına su tökdün. İçindəki erməni şeytanını büruzə verdin. Bu bir daha sənin erməni xalqına genetik bağlılığını göstərdi. Şahbuz rayon dindarları kimi, Əkrəm Əylisli, bu hərəkətin məni də çox hiddətləndirdi. Buna görə də Azərbaycan xalqına yaraşmayan hərəkətinə etiraz edərək nifrətimi bildirir, səni lənətləyirəm”.

Naxçıvan şəhərindən ***Vaqif Səfərov*** yazır: “Qərbi Azərbaycanda, Dağlıq Qarabağda, Zəngəzurda, Şuşada ermənilərin özlərinin də etiraf etdikləri vəhşilikləri unudaraq “Daş yuxular” nağılını yazan və bütün dövrlərdə daim əzilən erməni obrazını canlandıran “yazıçı” xalqımız üçün ermənilərdən də qorxulu düşməndir. Sizin yaradıcılığınız ömrünüzdən əvvəl tamamlandı”.

Hörmətli oxucular, bu məzmunda redaksiyamıza göndərilən 3 mindən çox məktubun hər birində Naxçıvan Muxtar Respublikasının sakinlərinin dərin hiddəti ifadə olunub. Xalqa xəyanət edənlər, ona arxadan zərbə vuranlar həmişə onun dərin nifrəti ilə damğalanacaqlar.

# Əkrəm özünə “Daş yuxular” adlı şərəfsizlik abidəsi ucaltdı

Əkrəm Əylislinin “Drujba narodov” jurnalında dərc olunan “Daş yuxular” əsəri məndə qəti bir fikir formalaşdırdı ki, belə əsər yazan adamın damarlarında azərbaycanlı qanı axa bilməz! Əsərdə tarixi həqiqətlər təhrif edilib, azərbaycanlılar qaniçən və qəddar kimi təqdim olunub, Azərbaycan qadını aşağılanıb. Bu əsər bütövlükdə Azərbaycan xalqını, millətini, adət-ənənələrini alçaltmağa yönəlmiş bir əsərdir.

Yer üzündə zalım, qəddar, terrorçu kimi ad çıxaran erməniləri sülhsevər və mədəni bir xalq kimi tanıtmaq yalnız Əkrəm kimi vətən xaininin işidir. Onun ilahiləşdirdiyi ermənilər XX əsrin əvvəllərində etdiklərini əsrin sonunda da davam etdirərək Xocalı soyqırımı kimi insanlıq əleyhinə cinayət törətməklə öz iç üzlərini bir daha açdılar. Xocalı qətliamının icraçılarından biri olan David Xeyreyanın “Xaç naminə” kitabında yazdıqlarını, yəqin Əkrəm Naibov da oxumamış deyil. O yazır: “Fevralın 26-da meyitləri daşıyıb Daşbulaq yaxınlığındakı bataqlığa tökdülər və cəsədlərdən keçid körpü düzəltdilər. Mən ölülərin üzərindən keçməyə qorxurdum. Tərəddüd etdiyimi görən polkovnik Ohanyan mənə dedi: “Qorxma, ürəklə keç! Bu hal müharibənin qanunlarından biridir”. Mən qana bulaşmış 9-11 yaşlı uşağın və digər meyitlərin üzərindən adlayıb bataqlığı keçdim... Ayaqlarım və fotokameram qana batmışdı”.

Bu da Əkrəmin “qardaşı” Xeyreyanın dedikləri. Əlbəttə, Əkrəmdən fərqli olaraq Xeyreyan yuxularını danışmır, 20 il bundan əvvəl baş vermiş reallıqları danışır. Budur Əkrəmin dünyaya sırımaq istədiyi “ideal” erməniliyin iç üzü! Əlləri uşaq qanına bulaşmış balayanların, köçaryanların, ohanyanların, sarkisyanların “Daş yuxular”da bəraət alması Əkrəmin ermənilərə genetik bağlılığının ifadəsidir.

Uydurma “böyük Ermənistan” kimi xəstə niyyətlərinə çatmaq üçün milyonlarla türkün qanını tökən erməniləri mədh edən Əkrəm “Daş yuxular” əsərini yazmaqla ədəbiyyat tarixində özünə şərəfsiz bir abidə ucaltdı.

**Surə SEYİD**
*filologiya üzrə fəlsəfə doktoru*

# Əkrəm kimi xalq düşmənini şəhidlərin ruhu bağışlamayacaq

Mən müharibənin od-alovundan keçib erməni vəhşiliyini gözləri ilə görmüş müharibə veteranı, otuzdan artıq kitab müəllifi olan bir qələm sahibi kimi Əkrəm Naibovun “Daş yuxular” cızma-qarasını milli satqınçılıq nümunəsi kimi qarşıladım.

Aparıcının “Niyə romanda Xocalı soyqırımından, Qarabağ faciələrindən bir kəlmə də olsun bəhs etməyibsiniz?” – sualına cavab verən Əkrəm deyir ki: “Bu masanın üstündə çaşka var, mən çaşkadan yazmışam, siz deyirsiniz ki, samovardan niyə yazmayıbsan? Mən Əylisdə baş verənləri yazmışam...”

Bu, şərəfsizliyin Əkrəm nümunəsidir. Xalqımızın gözündə lax yumurta qədər dəyəri olmayan “yazıçı” Əylisdə tökülən türk qanını həyasızcasına görmək istəmir. Tarixi mənbələrə nəzər saldıqda aydın olur ki, XX əsrin əvvəllərində Aşot Məlik Musayan və Movses Qulnazaryan Əylisdə ayrıca erməni hakimiyyəti yaratmaq məqsədilə Ermənistan hökumətinə və Zəngəzurdakı müxtəlif erməni təşkilatlarına müraciət edərək onları Əylisə çağırmışdır. Bundan sonra daşnak Xazar Kosparyanın komandanlığı altında erməni qoşun hissələri Dərələyəz-Zəngəzur yolu ilə Əylisə gəlmiş, buradakı azərbaycanlı əhaliyə qarşı vəhşiliklər törətmiş, kütləvi qırğınlar həyata keçirmişlər. Həmçinin mənbələrdə qeyd olunur ki, həmin dövrdə ermənilərin bir qrupu Tiflisə gedərək orada müsəlmanların əleyhinə xüsusi təşkilat yaratmaq istəmişlər. Onlar bu yolla guya Əylisdə türklərin erməniləri qırması haqqında dünya ölkələrinə yalan, uydurma informasiyalar yaymaq kimi fitnəkar əməllərlə məşğul olmuşlar.

“Daş yuxular” cızma-qarasında ermənilərin bu əməllərini azərbaycanlıların ayağına yazan, onu aşağılayan və qaniçən erməniləri ideallaşdıran “yazıçı” Əkrəm azərbaycanlı adını daşımağa layiq deyil. Xalqımıza qarşı düşmənçiliyini törətdikləri vəhşi cinayətlərlə, soyqırımlarla sübut etmiş ermənilərin mənafeyini qoruyan Əkrəm öz erməni əcdadları qarşısında övladlıq borcunu yerinə yetirdi.

Yazıçı Əkrəm Naibiyan, məktubumun əvvəlində də yazdığım kimi, mən müharibəni sənin kimi daş yuxularda yox, canlı görmüşəm. Doğulub yaşadığım Naxçıvan Muxtar Respublikasının Sədərək kəndi 1990-1993-cü illərdə dəfələrlə erməni hücumuna məruz qalıb. Sədərəyin müdafiəsində 108 nəfər şəhid olub, beş yüzdən artıq insan yaralanıb, yüzlərlə ev, ictimai bina, sosial obyektlər dağılıb xarabazarlığa çevrilib, ancaq torpaq qeyrətlə qorunub, oraya erməni ayağı dəyməyib. Bunlar sənin yuxuda gördüyün yox, mənim içindən keçdiyim müharibənin reallıqlarıdır. Vətənimizin qeyrətli oğulları torpaqlarımızın müdafiəsinə qalxarkən, ərazi bütövlüyümüz uğrunda şəhid olarkən, görünür, sən erməni ideoloq dostlarınla yeni “planlar” üzərində işləyirmişsən. Ona görə də toyuna hazırlıq görülən 20 yaşlı Hamlet Qədimovun erməni gülləsinə tuş gəlməsindən, həyətdə oynayan iki uşağın – Malik və Elvin qardaşlarının top mərmisindən həlak olmasından, işlədiyim Sədərək kənd məktəbinin 8-ci sinif şagirdi Vidadi Səfərzadənin erməni snayperi ilə qətlə yetirilməsindən, İlham Kazımovun toyundan bir ay sonra son damla qanına qədər vuruşub ələ keçmək məqamında öz əli ilə şəhidlik zirvəsinə ucalmasından, Türkiyədən müalicədən qayıdan İlqar Babayevin 5 gün sonra döyüş səngərində şəhid olmasından, gündüzlər döyüşdə şəhid olanları dəfn etməyin yalnız gecələr mümkün olmasından xəbərin olmayıb... Bunlar bir kənddə erməni təcavüzünün nəticələri və mənim gördüklərimin bir qismidir. Bəs Xocalı faciəsi, Bakıda, Naxçıvanda, Qubada, Şamaxıda törədilən soyqırımları, işğal olunmuş rayonlarımızda törədilmiş faciələr, bir milyon qaçqınımızın taleyi?.. Bütün bunları törədən ermənilər deyilmi?.. Bunları görə-görə ermənilərə haqq qazandıranı – sənin kimi xalq düşmənini şəhidlərin ruhu heç vaxt bağışlamayacaq!..

Belə bir deyim var ki, özü özünə edənə el yığıla edə bilməz... Sən öz xəyanətinlə xalqın qəzəbinə düçar olmusan... İndi sən peyin böcəyi qədər dəyərsizsən. İnsan üçün el töhmətindən, xalq nifrətindən ağır cəza təsəvvür etmirəm.

**Vaqif MƏMMƏDOV**
*Azərbaycan Yazıçılar Birliyinin və Avrasiya Yazarlar Birliyinin üzvü*

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompyuter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 148